UOT: 599.4

# LƏNKƏRAN VİLAYƏTİNİN TERİOFAUNASI

**QULİYEV Q.N.**
*AMEA Zoologiyaİnstitutu*
*qiyas_q@mail.ru*

**Abstract:** Information was collected on the diversity of the theriofauna of the Lenkoran region, the distribution of species in the regions and zoogeographic origin. There are 63 species in this province. By geographic origin, there are more species of Caucasian origin. In the Lankaran region, 28 out of 63 species (44.44%) are of Caucasian origin, 18 species (28.57%) are of Central Asian origin, 1 species (1.58%) is of Turanian origin, 4 species are of southern origin. Asian origin (6.34%). European mesophilic origin includes 9 species (14.28%). The region is divided into two districts: Lankaran and Talysh. Each district consists of two geographic districts. Some species are widespread in all landscapes. The number of mammal species in the Lankaran region is greater.
**Keywords**:*zoogeography, species,landscape,insectivorous, bats, rodents, carnivore*

Lənkəran vilayəti 3-cü dövrdən qalma teriofaunaya aiddir. Buranın teriofaunası Azərbaycanın digər vilayətlərinin terifaunasından fərqlənir. Lənkəran vilayətinin teriofaunası növtərkibinə görə Orta Araz vilayətinin faunasına yaxındır.

Lənkəran Vilayəti Xəzər dənizi səviyyəsindən 27 m-dən 2493 m (Kömürköy) mütləq hündürlüyə qədər yüksəlir. Ovalıqda meşə-çəmən subtropik, alçaq dağlıqda və qismən orta dağlıqda meşə, orta dağlıqda dağ-çöl landşaftları inkişaf etmişdir. Burada iki landşaft müəyyən olunur: Lənkəran və Talış rayonları. Lənkəran rayonunaa iki landşaft daxildir. Onlardan biri kəskin və orta parçalanmış dağətəyi və alçaq dağlığın çöl (qismən meşə-çöl) landşaftları, ikincisi orta dərəcədə parçalanmış dağarası düzənliklərin və ovalıqların çəmən və meşə-çəmən landşaftları, Talış rayonuna (Kəskin parçalanmış ortadağlığın enliyarpaqlı meşə və meşədən sonrakı çəmən-kolluq landşaftları, Kəskin parçalanmış orta dağlığın dağ kserofit landşaftları) aiddir [1]. Qeyd etmək lazımdır ki, 2004-cü ilin məlumatına əsasən Lənkəran Vilayətində 107 növdən 63 növün yayıldığı göstərilmişdir [2]. Lakin sitogenetik [3], biokimyəvi və molekulyar-genetik metodların tətbiqi Azərbaycanda, o cümlədən Lənkəran Vilayətində növlərin sayının dəqiqləşdirlməsi üçün zəmin yaratmışdır. Göstərilən metodların tətbiqi nəticəsində Azərbaycan ərazisində 115 növün yayıldığı təsdiqini tapmışdır [4]. Lənkəran Vilayətində növmüxtəlifliyini, say tərkibini müəyyən etmək və dəqiqləşdirmək məqsədəuyğun hesab edilir.

Tədqiqatın məqsədi Lənkəran vilayətində növmüxtəlifliyini, dəstələr üzrə növün say tərkibini dəqiqləşdirməkdən, zoocoğrafi mənşəyini müəyyən etməkdən və yayılmasını öyrənməkdən ibarətdir.

Ədəbiyyat məlumatları və xüsusilə tədqiqatlarımızın əsasında müəyyən edilmişdir ki, Azərbaycanın Lənkəran Vilayətində məməlilər sinfinin altı dəstəsinə daxil olan növlər qeydə alınır. Onlar düzənlik (yarımçöl), meşə, meşə-çöl və dağətəyi, meşə və dağ kserofit qurşaqlarda yayılmışlar. Lənkəran Vilayətində Həşəratyeyənlər dəstəsindən ağdöş kirpi–*Erinaceus concolor* Martin, 1838,cənub kirpisi–*Erinaceus roumanicus* Barret Hamilton, 1990, Qulaqlı kirpi–*Hemiechinus auritus* Gmelin, 1770, xırda köstəbək–*Talpa levantis* Thomas, 1906, Talış köstəbəyi–*Talpa talyschensis* Vereschagin, 1945, Şelkovnikov su kutorası–*Neomys teres* Miller, 1908, Cırtdan ağdiş–*Suncus etruscus* Savi, 1822, Xırda ağdiş–*Crocidura suaveolens* Pallas, 1811, Ağqarın ağdiş–*Crocidura leucodon* Hermann, 1780, Uzunquyruq ağdiş–*Crocidura gueldenstaedtii* Pallas, 1811,Xəzər ağdişi-*Crocidura caspicus* Pallas, 1811növləri yayılmışdır. Azərbaycan ərazisində Qonurdiş cinsinin 3 növünün yayılmasına baxmayaraq, Lənkəran vilayətində onlardan heç birinə rast gəlinmir. Yarasalar dəstəsindən kiçik nalburun–*Rhinolophus hipposideros* Bechstein, 1800, Meheli və ya eynəkli nalburun–*Rhinolophus mehelyi* Matschie, 1901, böyük nalburun–*Rhinolophus ferrumequinum* Schreber, 1774, Naterer şəbpərəsi və ya kirpikcikli şəbpərə–*Myotis nattereri* Kuhl, 1817, üçrəng

şəbpərə–*Myotis emarginatus* Geoffroy, 1806, bığlı şəbpərə (Gecə şəbpərəsi)–*Myotis mystacinus* Kuhl, 1817, Brandt şəbpərəsi (Meşə şəbpərəsi)–*Myotis brandtii* Eversman, 1845 (yalnız Hirkanda tapılıb Avropa növüdür), qonur palazqulaq yarasa–*Plecotus auritus* L., 1758, Avropa enliqulağı–*Barbastella barbastellus* Schreber, 1774, Piqmey şəbpərəsi (Kiçik şəbpərə)–*Pipistrellus pygmaeus* Leach, 1825, cırtdan şəbpərə–*Pipistrellus pipistrellus* Schreber, 1774, meşə şəbpərəsi (Nathisius şəbpərəsi)–*Pipistrellus nathusii* Keys. et Blazius, 1839, Küli şəbpərəsi (Aralıq dənizi şəbpərəsi)–*Pipistrellus kuhlii* Kuhl, 1817, adi ikirəng gönlücə-*Vespertilio murinus* L., 1758, Şimal gönlücəsi – *Eptesicus nilssonii* Keyserling et Blasius, 1839, dağ gönlücəsi–*Eptesicus serotinus* Schreber, 1774, Dovşankimilər dəstəsindən boz dovşan–*Lepus europaeus* Pallas, 1778, Gəmiricilər dəstəsindən Hind tirəndazı–*Hystrix indica* Kerr., 1792, bataqlıq qunduzu–*Myocastor coypus* Molina, 1782, adi süleysin–*Glis glis*L., 1766, Kiçik Asiya ərəbdovşanı–*Allactaga euphratica* Thom., 1881, kiçik ərəbdovşan–*Allactaga elater* Licht., 1825, boz siçancıq–*Cricetulus migratorius* Pallas, 1773; Kiçik Asiya siçancığı–*Mesocricetus brandti* Nehring, 1898, İran qum siçanı–*Meriones persicus* Blanford, 1875, Qırmızıquyruq qum siçanı–*Meriones libycus* Lichtenstein,1823, Kiçik Asiya qum siçanı–*Meriones tristrami* Thomas, 1892, dağ korçası–*Ellobius (Afghanomys) lutescens* Thomas, 1897, su siçovulu–*Arvicola terrestris* L.,1758, Şelkovnikov kol siçanı–*Microtus schelkovnikovi* Satunin, 1907, ictimai çöl siçanı–*Microtus socialis* Pallas, 1773, adi çöl siçanı–*Microtus arvalis* Pallas, 1779, *Microtus arvalis mystacinus* De Filippi, 1865 yarımnövü, Avropa qar siçanı–*Chionomys nivalis* Martins,1842, qara siçovul–*Rattus rattus* L.,1758, boz siçovul–*Rattus norvegicus* Berk.,1769; Ev siçanı–*Mus musculus* L.,1758, Kiçik meşə siçanı–*Sylvaemus uralensis* Pallas, 1811, Hirkan meşə siçanı–*Sylvaemus hyrcanicus* Vorontsov et all,1992, Yırtıcılar dəstəsindən boz canavar–*Canis lupus* L., 1758, çaqqal–*Canis aureus* L., 1758,adi tülkü-*Vulpes vulpes* L., 1758, qonur ayı–*Ursus arctos* L., 1758, Amerika yenotu (adi yenot)–*Procyon lotor* L., 1758, gəlincik–*Mustela nivalis* L., 1758, safsar–*Vormela peregusna* Guldenstaedti, 1770, daşlıq dələsi–*Martes foina* Erxleben,1777, Porsuq–*Meles meles* L., 1758, çay samuru–*Lutra lutra* L., 1758, qamışlıq pişiyi-Felis chaus Guldendstadt, 1776, bəbir–*Panthera pardus* L., 1752, Cütdirnaqlilar dəstəsindən çöl donuzu və ya qaban-*Sus Scrofa* Linnaeus, 1912, Avropa cüyürü-*Capreolus capreolus* L.,1758 qeydə alınır. Azərbaycana 1952-ci ildə 13 xallı maral (*Cervus nippon* Temminck, 1838) fərdi gətirilmişdir. Onlar Altıağac qoruğunda saxlanılmış və artırıldıqdan sonradaha əlverişli şərait hesab edilən Lənkəran təbii vilayətində yerləşən Hirkan Qoruğuna buraxılmışdır. 1990-cı illərdə onların sayı 50 fərd ətrafında olsada sonradan onlar təmamilə məhv olmuşdur. 1993-ci ildə tərəfimizdən aparılan monitorinq zamanı 9-10 ədəddən ibarət qrupa malik xallı maral qeydə alınmışdır. Bu heyvanların məhvində yerli şəraitə dözümsüzlüklə yanaşı antropogen amillərdə çox təsir etmişdir. Azərbaycan ərazisində yayılmış Həşəratyeyənlər dəstəsinə daxil olan 14 növdən 11 növü, Yarasaların 34 növündən 16 növ, Dovşankimilərdən 1 növ, Gəmiricilər dəstəsinin 37 növündən 21 növ, Yırtıcıların dəstəsindən 19 növündən 12 növ, Cütdırnaqlılar dəstəsindən 2 növ Lənkəran Vilayətində yayılmışdır. Yırtıcılar dəstəsindən olan Zolaqlı kaftar-*Hyana hyana*, Vaşaq və Gəmiricilərdən Meşə süleysini növlərinin Lənkəran Təbii Vilayətində yayılıb-yayılmaması mübahisəlidir. Lənkəran təbii vilayətində bu əraziyə xas olan spesifik növlər vardır, bu növlər Azərbaycanın heç bir vilayətində qeydə alınmır. Lənkəran Təbii Vilayətinin spesifik növlərinə həşəratyeyənlərdən Talış köstəbəyi, Xəzər ağdişi, Gəmiricilərdən Şelkovnikov çöl siçanı, Hirkan meşə siçanı növləri, *G. glis* caspicus yarımnövünün, *M arvalis* yarımnövünün kariotip formaları aiddir. Beləliklə, Lənkəran Təbii Vilayətində 4 spesifik növ və iki spesifik kariotip forması xarakterikdir. Azərbaycanda yayılmış 115 növdən 42 növü (36,52%) Azərbaycanın Qırmızı Kitabına [5] daxil edilmişdir. Lənkəran Təbii Vilayətində Azərbaycanın Qırmızı Kitabına 19 (45,23%) növ daxildir. Həşəratyeyənlərə 2 növ (4,76%) (xırda köstəbək, cırtdan ağdiş), Yarasalara 5 növ (11,90%) (kiçik nalburun, Meheli və ya eynəkli nalburun, böyük nalburun, üçrəng şəbpərə, Avropa enliqulağı), Gəmiricilərə 5 növ (11,90%) (Hind tirəndazı, dağ korçası, Şelkovnikov kol siçanı, Avropa qar çöl siçanı, Hirkan meşə siçanı, Yırtıcılara 6 növ (14,28%) (qonur ayı, safsar, daşlıq dələsi, çay samuru, qamışlıq pişiyi, bəbir), Cütdırnaqlılara 1 növ (Avropa cüyürü) aiddir.

Lənkəran Vilayətində yayılmış 63 növdən 6 növ (9,52%) (xırda köstəbək, talış köstəbəyi, xəzər ağdişi, süleysin, Şelkovnikov kol siçanı, Hirkan meşə siçanı) Qafqaz endemiklərinə aiddir. Onlardan 3 növü Həşəratyeyənlərə, 3 növü Gəmircilər dəstəsinə daxildir.

Həşəratyeyənlər dəstəsindən Talış köstəbəyi, Gəmiricilər dəstəsindən Şelkovnikov kol siçanı, Hirkan meşə siçanı) Qafqaz endemikləri olmaqla yanaşı, həm də Azərbaycanın endemik növləridir. Süleysin–*G. gliscaspicus*, adi çöl siçanı-*M.arvalis mystacinus* endemik yarımnövlərdir. Şübhəsiz ki, kompleks metodların, xüsusilə sitogenetik metodların tətbiqi nəticəsində, Lənkəran Vilayətində bu yarımnövlərin kariotip formaları yeni taksonların aşkar edilməsi üçün zəmin yaradır.

Lənkəran Vilayətində Qafqaz mənşəli 28 növ qeydə alınır. Onlara Həşəratyeyənlərdən 7 növ (xırda köstəbək, Talış köstəbəyi, Şelkovnikov su kutorası, xırda ağdiş, ağqarın ağdiş,uzunquyruq ağdiş, Xəzər ağdişi), Yarasalar dəstəsindən 8 növ (bığlı şəbpərə və ya gecə şəbpərəsi, Naterer şəbpərəsi və ya kirpikcikli şəbpərə, qonur palazqulaq yarasa, Piqmey şəbpərəsi və ya kiçik şəbpərə, cırtdan şəbpərə, şimal gönlücəsi, adi ikirəng gönlücə, dağ gönlücəsi), Gəmiricilər dəstəsindən 6 növ (süleysin, su siçovulu, Şelkovnikov kol siçanı, qara siçovul, ev siçanı, Hirkan meşə siçanı), Yırtıcılar dəstəsindən 6 növ (boz canavar, adi tülki, qonur ayı, gəlincik, porsuq, çay samuru), Cütdırnaqlılar dəstəsindən 1 növ (çöl donuzu və ya qaban) aiddir. Ön Asiya mənşəlilərə **18növ** daxildir. Onlara Həşəratyeyənlərdən 1 növ (qulaqlı kirpi), Yarasalar dəstəsindən 5 növ (kiçik nalburun, Meheli və ya eynəkli nalburun, böyük nalburun, üçrəng şəbpərə, Küli şəbpərəsi), Dovşankimilər dəstəsindən 1 növ (boz dovşan, Gəmiricilər dəstəsindən 9 növ (Hind tirəndazı, Kiçik Asiya ərəbdovşanı, boz siçancıq, Kiçik Asiya siçancığı, İran qumsiçanı, qırmızı quyruq qum siçanı, Kiçik Asiya siçacığı, dağ korçası, ictimai çöl siçanı), Yirtıcılardan 2 növ (adi safsar, daşlıq dələsi) aiddir. Bu ərazidə cütdırnaqlılardan Ön Asiya mənşəli yoxdur. Turan səhra mənşəli növlərə yalnız 1 növ Gəmiricilər dəstəsindən Kiçik ərəbdovşanı daxildir. Cənubi Asiya İstisevən mənşəli 4 növ qeydə alınır. Onlara Həşəratyeyənlər dəstəsindən 1 növ (cırtdan ağdiş), Yırtıcılardan 3 növ (adi çaqqal, bəbir, qamışlıq pişiyi) aid edilir. Yarasalar, Dovşankimilər, Gəmiricilər və Cütdırnaqlıların nümayəndələri Cənubi Asiya mərkəzində təmsil olunmur. Avropa mezofil mənşəlilərə **9 növ** daxildir Onlara Həşəratyeyənlərdən 2 növ (Ağdöş kirpi, Cənub kirpisi Avropada daha geniş yayıldığı üçün onu Avropa mənşəli hesab etmək olar), Yarasalardan 3 növ (Avropa enliqulağı, Brandt gecə şəbpərəsi, Nathisius şəbpərəsi), Gəmiricilərdən 3 növ (adi çöl siçanı, Avropa qar siçanı, kiçik meşə siçanı), Cütdırnaqlılardan 1 növ (Avropa cüyürü) qeydə alınır. Gətirilmə növlər 3 növdür. Onlara Gəmiricilər dəstəsindən 2 növ (bataqlıq qunduzu, boz siçovul), Yırtıcılar dəstəsindən 1 növ (Amerika yenotu-adi yenot) daxildir.

63 növdən 28 növ (44,44%) Qafqaz mənşəli, 18 növ (28,57%) Ön Asiya mənşəli, 1 növ (1,58%) Turan mənşəli, Cənubi Asiya mənşəli 4 növ (6,34%) Avropa mezofil mənşəlilərə 9 növ (14,28%), gətirilmə növlərə 3 (4,76%) növ daxildir.

Növlərin mövcudluğuna Antropogen amillər güclü təsir göstərir. Lənkəran Vilayətini dağətəyi qurşaqların urbanizasiyası, subtropik bitkilərin sahələrinin genişləndirilməsi, tərəvəz bitkilərinin əkin sahələrinin təbii çəmənliklər, meşələrin qırılması hesabına artırılması növlərin yaşayış sahələrinin azalmasına və qeyri əlverişli şəraitin yaranmasına səbəb olur. Transformasiyanın baş verməsi dağüstü çöllərdə də özünü göstərir. Burada əhalinin artımı ilə əlaqədar olaraq kənd tikintilərinin, istirahət zonalarının artırılması, dırnaqlı heyvanların kütləvi otarılması, yeni bağların, bağçaların genişləndirilməsi bu ərazidə yayılmış bitki ilə qidalanan məməlilərin azalmasına və nəticədə qida zəncirində trofik əlaqələrin pozulmasına səbəb olur.

Ədəbiyyat məlumatlarında qeyd edildiyi kimi Lənkəran Vilayəti Lənkəran və Talış rayonlarına bölünür.

Lənkəran rayonuna iki landşaft (kəskin və orta parçalanmış dağətəyi və alçaq dağlığın çöl (qismən meşə-çöl) landşaftları, ikincisi orta dərəcədə parçalanmış dağarası düzənliklərin və ovalıqların çəmən və meşə-çəmən landşaftları), daxildir. Bu landşaftlarda yayılmış məməli növlərinin əsasını geniş yayılmış 27 növ təşkil edir. Onlara Həşəratyeyənlərdən uzunquyruq ağdişi, yarasalardan böyük və kiçik nalburun, cırtdan və küli şəbpərəsi, dağ gönlücəsi, bığlı və ya gecə şəbpərəsi, Dovşankimilərdən adi dovşan, Gəmiricilərdən Hind tirəndazına, süleysin, bataqlıq qunduzu, qırmızıquyruq qum siçanı, boz siçancıq, adi, ictimai, kol çöl siçanları, ev siçanı, qara siçovul, boz siçovul, kiçik və Hirkan meşə siçanları, yırtıcılardan adi tülkü, boz canavar, adi çaqqal, adi porsuq, Amerika yenotu (adi yenot) cütdırnaqlılardan qabanı göstərmək olar.

Burada geniş yayılmış növlərdən başqa Həşəratyeyənlərdən kirpi, xırda köstəbək, Xəzər ağdişi, Yarasalardan Meheli və ya eynəkli nalburun, naterer şəbpərəsi və ya kirpikcikli şəbpərə, üçrəng

şəbpərə, bığlı şəbpərə (gecə şəbpərəsi), qonur palazqulaq yarasa, Avropa enliqulağı, piqmey şəbpərəsi (kiçik şəbpərə), Gəmiricilərdən Kiçik Asiya ərəbdovşanı, kiçik ərəbdovşanı, Hirkan meşə siçanına, yırtıcılardanqonur ayı, gəlincik, qamışlıq pişiyi növləri rast gəlinir.

Talış rayonuna (Kəskin parçalanmış orta dağlığınn enliyarpaqlı meşə və meşədən sonrakı çəmən-kolluq landşaftları, Kəskin parçalanmış orta dağlığın dağ kserofit landşaftları) daxildir.

Bu landşaftlarda Həşəratyeyənlərdən Talış köstəbəyi, cırtdan ağdiş, Şelkovnikov su kutorası, xırda ağdiş, ağqarın ağdiş, Yarasalardan Brandt şəbpərəsi (Azərbaycan ərazisində yalnız bir dəfə Astara rayonunun Hirkan meşəsində erkək fərdi tutulub, Avropa mənşəlidir). Kiçik Asiya siçancığı, İran qum siçanı, Kiçik Asiya qum siçanı, adi çöl siçanı, Şelkovnikov kol siçanı, dağ korçası, su siçovulu, Avropa qar çöl siçanı, çay samuru, daşlıq dələsi, bəbir, Cütdırnaqlılardan Avropa cüyürü aiddir.

## ƏDƏBIYYAT


1. Azərbaycan Respublikasının coğrafiyası. I cild. Fiziki coğrafiya. Bakı, Avropa nəşriyyatı, -2014, -530 səh.
2. Рахматулииа Н.К., Кулиев Г.Н., Кулиев С.М. Териофауиа гориых областей Азербайджаиа / Кабардииа-Балкарский иаучиый центр Ни-т экол. Гориыхтерритории, сб.иаучиых трудов, Нальчик, 2004, стр.99-118.
3. Орлов В.Н., Булатова Н.Ш. Сравиительиая цитогеиетика и кариосистематика млекоиитающих. Москва, изд. Наука, -1983, -405 стр.
4. Azərbaycan faunasının taksonomik spektri (onurğalılar) / -Bakı, “Elm və təhsil”, -2020. -143 səh.
5. Azərbaycan Respublikasının Qirmizi Kitabı, II nəşr, -Bakı, -2013. -517 səh. (Məməlilər səh. 409-497.